*Redaksiyanın arxivindən*

# 1916-cı il Britaniya qaynağı erməni problemi haqqında

***(əvvəli 7 və 8 avqust tarixli saylarımızda)***

Jurnalist Veytman yazır ki, o küçə vuruşmaları zamanı ermənilərin qumbaralarından və güllələrindən yaralanmış qırxa qədər əsgərin yatdığı hospitala da gedib. Həmin gün polis Bira küçəsindəki bir mənzildə çoxlu qumbara və partladıcı maddələr toplamışdı. Deyilənlərə görə onları bura ruslarla gizli razılaşma vasitəsilə gətiriblərmiş. Veytman təsdiq edir ki, o da bir qrup xarici jurnalistlə Topxanada kütlələr üçün nümayiş etdirilən həmin tapıntılara baxmağa dəvət olunmuşdu. Orada ümumi bir meyil var idi ki, ermənilərin türklərə qarşı yönəltdiyi güclü provakasiya mənafeyinə xidmət edə bilən heç bir fakt etiraf edilməsin və tapılmış bombalar mövzusunda heç bir təbliğat işi aparılmasın".

Veytman yazır: "Osmanlı bankına hücum və ondan törənmiş hadisələrin xəbəri Avropaya yayıldıqdan sonra baş vermiş vəhşiliklər haqqında məlumatlar toplamaq məqsədilə İstanbula bir neçə fotomüxbir gəldi. Lakin ölülər layiqincə dəfn edilmiş, qadınlar və uşaqlar yaralanmamış bir dənə də olsun erməni kilsəsi təhqir olunmamışdı.

O vaxtlar qeyrətli və əzmli, öz ulduzunun daha yüksəklərdə parlamağını görmək istəyən Milton Brever adlı məşhur bir hərbi müxbir şahidi olmadığı şeylər haqqında uydurmalar yazmaqdan imtina etmişdi. "Lakin, bəziləri bu cür diqqətli deyildilər. Mən belə bir şeyi şəkilli bir İtalyan qəzetində gördüm. Orada kilsələrdən birində öldürülən qadınların və uşaqların kədər doğuran təsvirləri var idi".

Dikson-Conson "1915-ci il hadisələri" haqqında belə yazır: "İndi... yenə də həmin işin şahidi oluruq... Qəzetlərdə bir-birinin ardınca nəşr olunan hesabatların düzgünlüyünə inanmaq üçün əlimizdə zəmanət verə biləcək heç bir əsas yoxdur... Bu hekayətlərdən istifadə edənlər ancaq bir tərəfin — heç də bitərəf olmayan tərəfin sözünü eşidiblər". O əlavə edir: elə bir ingilis tapa bilməzsən ki, dustağı özünü müdafiə etmək üçün dəlillərdən istifadə etməkdən məhrum etsin. "Ekonomist" qəzetinin redaktoru qeyd edir ki, bir fəlakətlər haqqında hesabatları təhqiq edərək gərək qarşımıza isbatedici meyarları da qoyaq..."

Hərbi müxbir kapitan Qranfil Fortskof kitabında şayiələrin qəzetlər vasitəsilə yaranması və dünyanın hər yerində yayılmasını belə izah edir: "Türkiyədə inqilab haqqında şayiələr çox və arasıkəsilməzdir. Ancaq gərək mən deyəm ki, onların heç bir düzgün əsası yoxdur. Mən dəfələrlə uzun-uzadı yazılmış məktubları oxumuşam... Onlarda Türkiyədəki həyəcanlı vəziyyət təsvir olunur. Konstantinopoldakı qarışıqlıqlara həsr olunmuş mövzunu yada salaq. Orada yazılmışdı ki, "Müharibəni saxlayın" adlanan bir qrup tərəfindən Bira Palas mehmanxanası partladılmışdı. İş burasındadır ki, məktubda göstərilən həmin gün mən o mehmanxanada idim. Bütün bu hekayət fantastikadır..."

1915-ci il hadisələrindən danışan Lord Brays, Noel Paktson və Anorin Uilyams britaniyalılarıdı və dünya ictimaiyyətini aldatmırdılar. "Lakin bəziləri (burada kimin əli olduğu çox yaxşı məlumdur) onları aldadırdılar". Bu əllər Avropada və Amerikada geniş yayılan və məqsədlərinə çatmaq üçün hər cür vasitədən istifadə etməkdən çəkinməyən erməni cəmiyyətlərinə məxsusdur. Onların şüarı: məqsəd vasitəyə bəraət qazandırır" (səh. 43).

1915-ci ilin oktyabrın 5-də Arel Kro lordlar palatasında Arel Krumerin "ermənilər barədə yenidən baş vermiş qırğınlara" aid kral hökumətinin qəzet səhifələrindən aldığı məlumatlar haqqındakı sualına cavab verərək öz hesabatında Batumdakı Britaniya konsulunun hesabatına istinad etmişdi. Konsul da öz növbəsində Tiflisdə çıxan "Horizon" qəzetinə istinad etmişdir. Cavab belədir: "Bu erməni təbliğatının çaldığı şeypurdur və ona görə də buna inanmaq olmaz".

"Bu müharibədə bizim əlimizdə Lord Keçerdən başlamış başqalarına qədər hər cür rütbələrdən alınmış kifayət qədər inandırıcı dəlillər vardır ki, türklər igidlik və ləyaqətlə vuruşublar. Onlar bizim yaralılar və əsirlərlə qayğıkeşliklə və humanistcəsinə rəftar ediblər.

Buna görə də ağıla gətirmək olmur ki, həmin bu türklər onlara qarşı heç bir provokasiya olmadan ittiham olunduqları belə şeytani əməllər törətsinlər. Lord Brays özü təsdiq edir ki, heç bir dini fanatizm yoxdur. Bu məsələ ilə bağlı bizim əlimizdə axırıncı Balkan müharibəsinin lap ortasından qayıdan məşhur bir hərbi müxbirin mühüm qeydləri var: "qəribə bir şey görünür, — Balkanda yeganə xristianlar elə türklərin özləridir".

Türkiyənin hərbi-siyasi vəziyyətinə və türk şəxsiyyətinə olan ötəri nəzər türklərin özlərinin təcavüzkar olmamaları və heç bir provokasiyaya məruz qalmadıqları halda hərəkət etmələri haqda deyilən iddianı təkzib etməyə tamamilə kifayətdir... Ermənilərin özləri üsyan qaldırmaqla çaxnaşma və qarışıqlıq salmaqda davam edirdilər" (səh. 46).

Dikson-Conson (səh. 47) deyir: Erməni könüllülərinin silahlı dəstələri 1915-ci ilin martından qabaq da ölkədə fəaliyyət göstərirdi. "Ermənilərin dostları" və Lord Brays onları paltar və sursatla təmin etmək üçün hələ "qırğından qabaq pul buraxmasını tələb edirdilər. Bundan başqa çar Rusiyası da erməniləri silahlandırır və üsyanı qızışdırmağa kömək edirdi. Məsələn Van erməniləri türklərin Sarıqamışdakı məğlubiyyətindən sonra belə hesab edirdilər ki, artıq Rusiyanın tam qələbəsi təmin edilmişdir və onların fürsəti gəlib çatmışdır. Rus casusları və öz "inqilabçıları" tərəfindən təhrik olunan ermənilər qiyam qaldırdılar. "Tayms"ın müxbirinin etirafına görə onlar etinasızlıqdan istifadə edərək "nəhayət Van şəhərini tutdular və öz düşmənlərindən qanlı intiqam aldılar". İyun ayında ermənilər xəyanət yolu ilə şəhəri ruslara təslim etdilər. Dikson-Conson etiraf edir ki, Kiçik Asiyanın başqa yerlərində də təşkil olunmuş üsyanlar baş verirdi" (səh. 48).

"Yunayted press" (ABŞ) agentliyinin müxbiri Henri Vud deyir ki, ermənilər təkcə üsyan qaldırmamışdılar. Faktiki olaraq onlar Vanı və bir neçə mühüm şəhəri tutmuşdular.

Türk hakimiyyət orqanları Zeytunda erməni gənclərini hərbi xidmətə səfərbərliyə almaq istəyəndə onlar (ermənilər) əsgərlərə hücum etmiş və 300 nəfəri öldürmüşdülər. Yazıçının aşağıdakı qeydlərinə nəzər salaq:

"Aydındır ki, Türkiyə hökuməti öz rabitə yollarının təhlükəsizliyindən narahat idi. Onun qarşısında üsyançı təbəqələrin əməliyyat zonasından uzağa köçürmək və oradan arada saxlamaqdan başqa çıxış yolu yox idi. Labüd olan bu ehtiyat tədbiri ermənilər tərəfindən qaldırılan çoxlu iğtişaşlara səbəb oldu. Yerlərdə qalan müsəlmanlar müdafiə olunmaqda aciz idilər. Çünki nizami hissələr, polisin və cavanların çoxu cəbhədə idilər. Qiyamçıların Vanda törətdikləri vəhşiliklərdən xəbər tutan əhalini qəzəb bürüdü və onlar öz həyatları və ailələrinin həyatı üçün qorxdular. Hadisələrin inkişafı çaxnaşma və intiqama gətirib çıxardı. Belə hallarda adətən günahsız və günahkarla birgə əziyyət çəkir".

Yazıçı göstərir (səh. 49) ki, türk öz problemindən danışmağı mənliyinə sığışdırmır. Ancaq "erməni tərəfdarları" öldürülənlərin sayını şişirtmək və dəfələrlə təkrar etmək yolu ilə ictimaiyyəti qorxuya sala bildirlər. Məlumdur ki, onlar qədim bir Şərq məsələsinə uyğun olaraq hərəkət edirdilər: "Yalanı bir günlüyə burax, sonra onu dərk etməyə yüz il lazım gələcək". Lord Brays 1915-ci il oktyabrın 5-də lordlar palatasındakı çıxışında 800 min (sonralar bu rəqəm I mln. çatdırılacaq) erməninin öldürüldüyünü demişdi.

Dikson-Conson bu rəqəmə Rusiyaya sığınmış 250 min qaçqını və Misirdəki 13 min qaçqını da əlavə edir ki, rəqəm I mln. 630 min erməniyə çatsın. Başqa bir tərəfdən o qeyd edir ki, ser Çarlz Vilsona görə doqquz əyalətdə ermənilərin ümumi sayı cəmi 925 min nəfərdir. Müqayisə üçün göstərir ki, Tripoli müharibəsində "İtalyan qəzetləri tərəfindən öldürülən ərəblərin" sayı ölkə əhalisinin sayından üç dəfə çox olmuşdu. O, Mersindən alınan "çox qeyri-adi hesabatlara" işarə edir. Onları göründüyü kimi ingilis qəzetlərinə həmin Lord Brays vermişdi. Bu "hesabatlarda" şəhərdən çıxarılan erməni əhalisinin sayı təqribən "25 min nəfər" verilmişdir. Dikson-Conson diqqəti məsələnin başqa tərəfinə cəlb edir: — Mersin şəhərinin əhalisinin ümumi sayı 20 min 966 nəfərdir və onlardan II min 246-sı türk, 2441-i yəhudi və qalan 7279-u yunanlar, ermənilər, latınlar və nestorianlardan ibarət olan xristianlardır. Yazıçı təəccübünü bildirərək deyir: heç cürə başa düşmək olmur ki, bütün xristian əhalisinin sayı 7279 nəfər (onların da əksəriyyəti yunanlardır) olan Mersindən 25000 ermənini necə köçürmək olardı" (səh. 50).

Lord Braysın lordlar palatasındakı bəyanatı haqqında hesabat verən "Tayms" yazır: "O dedi ki, Trabzonda Türk hakimiyyət orqanları bütün xristianları qovaraq bir yerə yığmış və küçələrdən keçirərək dənizə tərəf aparmışdır. Orada onları gəmilərə doldurub Qara dənizdə müəyyən məsafəyə sürmüş və suya atıb boğmuşlar. Bütün erməni əhalisi, təxminən 8-10 min adam bir günün içərisində bu yolla öldürülmüşdür". "Tayms qəzeti öz baş məqaləsində verdiyi başqa məlumatlarda deyir ki: "Bu müdhiş hadisə barəsində hesabat verən İtaliya konsulu onu öz gözləri ilə görüb".

Dikson-Conson bu qədər adamın dənizdə "müəyyən məsafəyə" aparılması üçün lazım olan gəmilərin sayına toxunaraq əlavə edir ki, bu hadisələr haqqında olan hesabatlar Romada çıxan "Messaçero" qəzetinin yazdığına görə "konsulun dediyindən tamamilə fərqlənir. İtaliya konsulu sinyor Korrini deyir ki, "ermənilərin mühafizə altında şəhərdən sürgün olunması və küçələrdə atəşə tutulması, düz bir ay davam etdi". Eyni zamanda adamlar yüklənmiş gəmilərə və bir gün ərzində onların kütləvi şəkildə suda boğulmalarına heç bir işarə yoxdur.

Dikson-Conson 1876-cı il üsyanı zamanı öldürülmüş bolqarların sayı haqqında olan düzgün məlumatları 1896-cı il Sasun iğtişaşları zamanı ölmüş ermənilərlə müqayisə edərək belə nəticəyə gəlir ki, əvvəllər nəşr olunmuş rəqəmlər dəqiq yoxlanıldıqdan sonra onların yalnız 9,6 faizi düzgün çıxmışdır. O belə hesab edir ki, "Lord Braysın da hesablamalarında mübaliğə vardır" (səh. 51). O əlavə edir ki, türklərin pis rəftarları haqqında olan hekayətlər təhqiq edildikdən sonra isbat olundu ki, onlarda böyük mübaliğə vardır və "ağlı olan hər bir kəs bunlara inanmaz".

Dikson-Consona görə "arası kəsilmədən yayılan" bu şayiələrin müəllifləri şübhəsiz ki, "mərkəzdən idarə olunan erməni agentliklərinin işidir". O Sidney Veytmana istinad edərək yazır: "1895-96-cı il erməni üsyanı başlanmamışdan qabaq hər şey "ikinci Bolqarıstan" yaratmaq üçün əvvəlcədən ABŞ və Avropa mətbuatında çox dəqiqliklə hazırlanmışdı".

Dikson-Conson belə hesab edir ki, yayılmış bu uydurmalar beyinlərə təsir etmək üçün müəyyən məqsəd güdür: Britaniya hökumətinin gələcək siyasətinə təsir etmək və ictimaiyyəti arzu olunan məqsədə hazırlamaq (səh. 54).

O Noel Pakstonun "Noyntin Sentri"dəki məqaləsinə, Valter Ceyisin (parlamentin üzvü) Şərqi Anadoluya səyahəti haqqında yazısına və "Tayms"da (31 dekabr 1913) çıxan məqaləsinə əsaslanaraq rusların fəal surətdə erməniləri silahlandırması mövzusuna toxunur. "Tayms"dakı məqalənin oxucularını xəbərdar edir ki, mason üsullarının Kiçik Asiyaya ayaq açması, tayfa müharibəsi və onun törədəcəyi nəticələr böyük təhlükəyə gətirib çıxara bilər. Müxtəsəri odur ki, Rusiya erməniləri silahlandırırdı (s. 58-59).

Türkiyənin vəziyyətinin necə çətin olduğu oxucunun yadındadır. Həmin dövr üçün "ölüm, ya dirim məsələsi idi". Əgər vəziyyət belə davam etsəydi türk ordusu Qafqazda mühasirədə qalar və sözsüz ki, erməni qiyamçıları müsəlman əhalisini tamamilə məhv edib qurtarardılar (səh. 60).

**Doktor Türkqaya Ataof,**
**Ankara Universitetinin Siyasi elmlər fakültəsi Beynəlxalq əlaqələr şöbəsinin professoru.**

**1996-cı il.**